**Həm ticarət, həm də qazanc şansı**

Uduşlu ödəniş çeklərinin tətbiqi üzrə beynəlxalq təcrübə

Dünya təcrübəsi göstərir ki, nağd hesablaşmalar zamanı nəzarət-kassa çeklərinin alıcılar tərəfindən tələb edilməsinin stimullaşdırılması üçün tətbiq edilən stimullaşdırıcı lotereya oyunlarının keçirilməsi vergilərin yığılmasına müsbət təsir göstərir. Bu, vergi orqanlarına əhali ilə nağd pul hesablaşmalarının aparılmasına nəzarət etməyə və saxta hesab-fakturalardan istifadənin qarşısını almağa, vergi daxilolmalarının artmasına şərait yaradır. Onu da qeyd etmək lazımdır ki, stimillaşdırıcı lotereyaların keçirilməsi bir müddət əvvəl Azərbaycanda da təşkil olunmuşdur.

***Tayvan***

Tayvanda kassa çeklərinə uduşlu lotereya tətbiq etmək ideyasının tarixi 62 il əvvələ gedib çıxır və bu ölkədə lotereyanın keçirilməyə başlandığı ilk ildə vergi daxilolmalarının məbləği əvvəlki ilə nisbətən 75% artmışdı... Hələ 1950-ci ildə Tayvan hökuməti vergi daxilolmalarının artırılması və biznes subyektləri ilə istehlakçılar arasında aparılan kommersiya əməliyyatları barədə daha dolğun məlumatların əldə edilməsi məqsədilə uduşlu ödəniş çeklərinin tətbiqinə başlamışdı. İstehlakçılara verilən hər kassa çekinin üzərində hökumət tərəfindən müəyyən edilən xüsusi faktura nömrəsi olurdu ki, bu da nağd hesablaşmalardan əldə edilən gəlirləri izləməyə və vergidən yayınmanın qarşısını almağa imkan verirdi.

Həmin layihə hazırda da Tayvanda uğurla tətbiq edilməkdədir. Kassa çeklərinin üzərində hökumət tərəfindən müəyyən edilən 8 rəqəmli kod və lotereyanın keçiriləcəyi tarix dərc edilir. Bu kodlar iki ayda bir dəfə lotereya kimi oynanılır. Lotereyaların nəticələri barədə məlumatlar Maliyyə Nazirliyinin elektron vergi portalında yerləşdirilir.

Qaydalara əsasən, 4 min Tayvan dollarından artıq uduş əldə edən şəxslərə ödəmə mənbəyində 20% dərəcə ilə vergi tutulur. Təqdim etdikləri kassa çekləri lotereyada qalib olduğu halda (çox böyük olmayan məbləğ), bir sıra ticarət obyektləri həmin çekləri ödəniş vasitəsi kimi qəbul edirlər.

Lotereyaların hökumət adından əsas təşkilatçısı Tayvan Kooperativ Bankı hesab olunur.

Tayvanda tətbiq edilən bu layihənin davamı kimi, 2006-cı ildən etibarən bizneslərarası əməliyyatlarda (B2B - business to business), 2010-cu ilin sonlarından etibarən isə biznes subyektləri ilə istehlakçılararası əməliyyatlarda (B2C - business to consumer) elektron hesab-fakturalar sistemi tətbiq edilməyə başlanılıb və bu sistemi stimullaşdırmaq məqsədilə Tayvan hökuməti istehlakçılar üçün yeni uduşlu elektron hesab-fakturalar sxemi layihəsini təqdim edbi. Layihəyə əsasən, pərakəndə ticarət obyektlərində alış-veriş edən istehlakçılar kassa çekinin elektron surətini satıcıdan tələb edə və bu çek vasitəsilə həyata keçirilən uduşlu lotereyalarda iştirak edə bilərlər.

Hökumət tərəfindən aparılan araşdırmalara əsasən, elektron kassa çeklərinin tətbiqi layihəsi istehlakçılar üçün alış-veriş prosesini sadələşdirməklə onları kağız daşıyıcısında olan çekləri saxlamaq yükündən azad edir.

***Çin***

Çin Xalq Respublikasında 2002-ci ildə ilk dəfə olaraq paytaxt Pekinin ərazisində ticarət obyektlərindən əldə edilmiş kassa çeklərinə hökumət tərəfindən uduş tətbiq edilməyə başlanılmışdır. O vaxt uduşun məbləği 100 - 5.000 yuan arasında dəyişirdi. Həmin ilin sonuna kimi Çinin bütün bölgələrində uduşlu kassa çeklərinin tətbiqinə başlanıldı.

Hazırda Çində kassa çeklərinə və vergi hesab-fakturalarına tətbiq edilən uduşlu lotereyalarda iştirak etməklə istehlakçılar 500 min yuan məbləğinədək uduş əldə edə bilərlər. Layihə çərçivəsində, həmçinin, «sil və qazan» («scratch-off») tipli uduşlar da həyata keçirilir.

2012-ci ildən Çində kassa çeklərinə və hesab-fakturalara (o cümlədən elektron hesab-fakturlara) münasibətdə lotereyaların keçirilməsinin yeni qaydaları tətbiq edilməkdədir. Qaydalara əsasən, çek əldə edən istehlakçı onun üzərində qeyd edilən rəqəmləri xüsusi telefon nömrəsinə qısa mesaj vasitəsilə göndərərək avtomatik olaraq lotereyanın iştirakçısına çevrilir və istehlakçının nömrəsinin lotereyada iştirak məqsədilə qeydiyyata düşdüyü barədə ona avtomatik cavab mesajı gəlir. Bununla yanaşı, yerli vergi orqanının rəsmi internet səhifəsində də qeydiyyatdan keçməklə lotereyanın iştirakçısı olmaq mümkündür. İki ayda bir dəfə keçirilən lotereyada qalib gələn şəxslərə

onların qalib olduqları və qazandıqları uduşun məbləği barədə SMS gəlir və udulan məbləğ (əsasən, kiçik məbləğlər) mobil operator tərəfindən 15 gün müddətində danışıq məbləği kimi həmin nömrənin balansına daxil edilir. Bu isə kiçik məbləğdə uduş əldə edən şəxsləri uduşu götürməklə bağlı əlavə xərc və vaxt itkisindən azad edir.

Yeni qaydalara əsasən, keçiriləcək lotereyaların illik büdcəsinin 60 milyon yuana qaldırılması, uduşların sayının artırılması (daha kiçik məbləğlərdə daha çox sayda uduşlar), iştirakçıların qalib gəlmək ehtimalının artırılması və lotereyaların rübdə bir dəfə əvəzinə iki ayda bir dəfə keçirilməsi nəzərdə tutulur. Bir çek və ya hesab-faktura lotereyada yalnız bir dəfə iştirak məqsədilə qeydiyyatdan keçirilə bilər.

Tayvanda olduğu kimi, Çində də uduş məbləğindən ödəmə mənbəyində 20% dərəcə ilə vergi tutulur. Əgər uduş əldə edən hüquqi şəxsdirsə, o zaman udulan məbləğ onun hesabına köçürülür və həmin məbləğ işçilərə dividend şəklində paylanan zaman ödəmə mənbəyində eyni dərəcə ilə vergi tutulur.

***Malta***

Maltada lotereyalar həm əlavə dəyər vergisinin əvəzləşdirilməsi məqsədilə alınan hesab-fakturalara, həm də kassa çeklərinə tətbiq edilir. Hesab-faktura əldə edən şəxslər həmin fakturaların arxasına şəxsiyyətlərini təsdiq edən sənədin nömrəsini yazıb onları hər ayın 10-dək Dövlət Lotereyaları Departamentinə göndərməklə oyunda iştirak üçün qeydiyyata düşə bilirlər. Qalib gələn şəxslərə dərhal müvafiq məlumat göndərilir. Keçirilən lotereyalarda orta hesabla 50 qalib olur və oyunda 7 milyon çek və hesab-faktura iştirak edir. Lotereyalar ayda bir dəfə keçirilir və istənilən şəxs oyun prosesində iştirak edə bilir.

***Gürcüstan***

Bu ildən Gürcüstanda Gəlirlər Xidməti tərəfindən Gürcüstan Lotereya Kompaniyası ilə birlikdə oxşar layihə həyata keçirilir. Nağd qaydada mal və ya xidmət alan şəxslər əldə etdikləri çek və ya hesab-faktura ilə gündəlik keçirilən lotereyalarda iştirak edərək 10, 20, 50, 100, 10.000 və 50.000 lari uduş əldə edə bilirlər. Uduşlar gəlir vergisindən azaddır. Lotereyanın nəticələri barədə iştirakçılar Gəlirlər Xidmətinin internet səhifəsində və ödəmə məntəqələrində çek və ya hesab-fakturaların üzərindəki 6 və 8 rəqəmli kodları xüsusi menyuya daxil etməklə və ya xüsusi telefon nömrəsinə SMS göndərməklə məlumat əldə edə bilirlər. Udulan məbləğləri Gürcüstan ərazisində fəaliyyət göstərən 4 bankdan, lotereya keçiriləndən 30 gün sonra götürmək mümkündür. Layihə ilə bağlı Gürcüstan Gəlirlər Xidmətində qaynar xətt fəaliyyət göstərir.

Gürcüstanda həyata keçirilən bu layihə çərçivəsində indiyədək 66 min şəxs tərəfindən 1,3 milyon lari məbləğində uduş əldə edilib. İlin sonunadək bu rəqəmin 9 milyon lariyə çatması nəzərdə tutulur.

Arzu İBRAHİMOVA